## Mövzu 10. XIV-XV ƏSRLƏRDƏ AZƏRBAYCAN DÖVLƏTLƏRİ
## (ardı)

Osmanlı hökmdarı II Mehmedin 1460-1461-ci illərdə Qara dəniz sahilində mühüm strateci və iqtisadi əhəmiyyəti olan Trabzonu işğal etmək cəhdləri Ağqoyunlu dövlətinin maraqlarına ciddi zərbə oldu. 1461-ci ildə Trabzona doğru hücuma keçən Osmanlı qoşunlarının Qoyluhisar savaşında Ağqoyunlular tərəfindən məğlub edilməsindən sonra başlanmış sülh danışıqları Yassı-Çəmən barışığının bağlanması ilə nəticələndi. Sara xatun bütün diplomatik bacarığını ortaya qoymaqla Osmanlı-Ağqoyunlu savaşını dayandırmağa nail olsa da, II Mehmedi Trabzonu işğal etmək fikrindən daşındıra bilmədi. Beləliklə, 1461-ci ilin payızında Trabzonun fəthi ilə Ağqoyunlu dövləti Qara dənizə yeganə çıxış yolunu və hərbi strateci müttəfiqini itirdi. Bu dövrdə Diyarbəkr və ətraf əraziləri əhatə edən, elə də böyük hərbi potensiala malik olmayan Ağqoyunlu dövləti əsas rəqibi olan Qaraqoyunlu dövləti ilə qarşıdurmada olduğuna görə Trabzonun itirilməsi faktı ilə razılaşmaq məcburiyyətində qalmışdı. II Mehmedin Trabzonu işğal etməsi Ağqoyunlu-Osmanlı münasibətlərinin daha da kəskinləşməsinə səbəb oldu.

XV əsrin 50-60-cı illərində Osmanlı işğallarının qərbə doğru genişlənməsi Avropa dövlətlərinin də Şərqdə Osmanlıya qarşı müttəfiq axtarışlarına təkan verdi. Bu istiqamətdə təşəbbüs əvvəlcə Roma papaları, sonra isə Venesiya respublikasına məxsus idi. II Mehmedin Aralıq və Qara dəniz ticarət mərkəzlərini ələ keçirib Şərqlə-Qərb tranzit ticarətində əsas vasitəçi olan Venesiya tacirləri üzərinə ağır gömrük vergisi qoymaqla Osmanlı-Venesiya müharibəsinə(1463-1479) səbəb oldu. Məhz bu dövrdən etibarən Ağqoyunlu dövlətinin Avropa ölkələri, xüsusilə də Venesiya ilə geniş diplomatik əlaqələri başlandı.

XV əsrin 60-70-ci illərində Andrea Kornoro, Lazaro Kvirno, Katerino Zeno, İosafat Barbora, Ambrocio Kontarini və s. Venesiya səfirləri Ağqoyunlu sarayında, Hacı Məhəmməd, Həsən Əzən, Murad bəy və digər Ağqoyunlu səfirləri isə Avropa ölkələrində geniş diplomatik danışıqlar aparırdılar. Geniş diplomatik fəaliyyət nəticəsində Ağqoyunlu dövləti ilə Venesiya respublikası, Vatikan, Neapol krallığı, Macarıstan və Kipr arasında Osmanlıya qarşı ittifaq və birgə müharibə planı hazırlandı. Plana əsasən Ağqoyunlu qoşunları Aralıq dənizə sahilinə çıxmalı, Avropadan göndərilən odlu silah və artilleriyanı əldə etdikdən sonra müttəfiqləri ilə birlikdə İstanbula yürüşə başlanmalı idi.

1472-ci ilin yazında Ağqoyunlu qoşunları əldə edilmiş razılığa uyğun olaraq Qeysəriyyə yaxınlığında Osmanlı ordusunu məğlub edərək Aralıq dənizi sahilinə çıxsa da, Avropa müttəfiqləri vaxtında gəlib çıxmadılar və Beyşehr savaşında məğlub olan Ağqoyunlular Aralıq dənizi sahilini yenidən itirdilər. Beləliklə Uzun Həsənin Avropadan odlu silah almaq və müttəfiqləri ilə Aralıq dənizi sahilində birləşmək planı xristian dövlətlərinin xəyanəti nəticəsində boşa çıxdı. Qışın yaxınlaşması ilə əlaqədar hərbi əməliyyatlar təxirə salınsa da, Ağqoyunlu-Osmanlı savaşlarının yeni səhifəsi 1473-cü ilin yayında bərpa olundu.

1473-cü ilin avqustun 1-də baş vermiş Malatya savaşında Uzun Həsənin tətbiq etdiyi hərbi taktika Ağqoyunlulara uğur gətirsə də 1473-cü ilin avqustun 11-də Otluqbeli(Tərcan çayı sahilində) döyüşündə Ağqoyunlu dövləti məğlub oldu. Ağqoyüunluların məğlubiyyətinin əsas səbəbləri əsasən müttəfiqlərinin xəyanəti və Osmanlı ordusunun güclü artileriya və odlu silahlara malik olması ilə bağlı idi. Ağqoyunlu dövləti məğlub olsa da, Osmanlı ordusuna vurulmuş ağır zərbələr onların Şərqə doğru işğallarının qarşısını aldı və II Mehmedin Azərbaycanı ələ keçirmək planı baş tutmadı.

**Ağqoyunlu dövlətinin süqutu.**

Osmanlı dövləti ilə aparılmış ağır savaşlar, ölkənin sosial-iqtisadi vəziyyətinin kəskinləşməsi, hərbi-köçəri əyanların mərkəzdənqaçma meylləri Ağqoyunlu dövlətinin zəifləməsinə səbəb oldu. 1474-cü ildə Uzun Həsənin oğlu Uğurlu Məhəmmədin Şirazda atasına qarşı qiyam qaldırması hərbi-köçəri əyanların separatizm meylinin parlaq nümunəsi idi. Şiraz qiyamı ərəfəsində Təbrizdə olmuş Venesiya səfiri Ambrocio Kontarininin verdiyi məlumatlar dövlətin daxili durumunun qeyri sabit olmasını bir daha təsdiq edir. Uzun Həsən böyük çətinliklə oğlunun qiyamını yatırmış və Uğurlu Məhəmməd Osmanlı sarayına sığınaraq Sultan II Mehmedin qızı ilə evlənmişdi. Ölkə daxilində siyasi sabitliyi bərpa edən Uzun Həsən 1474-1475-ci illərdə Gürcüstana yürüş edərək Tiflis daxil olmaqla Şərqi Gürcüstanı Ağqoyunlu dövlətinə birləşdirmişdi. Bu Ağqoyunlu dövlətinin xarici siyasət sahəsində demək olar ki, sonuncu uğur oldu. 1478-ci ildə görkəmli siyasətçi, bacarıqlı dövlət xadimi və yenilməz sərkərdə olan Uzun Həsənin ölümü ilə Ağqoyunlu dövlətinin tənəzzülü daha da sürətləndi. Doğrudur, Sultan Yaqubun(1478-1490) hakimiyyəti dövrü nisbi sakitlik şəraitində keçsə də, Ağqoyunlular 1480-ci ildə Misir və Suriya hökmdarının qoşunlarını məğlub etsə də bütün bunlar ötəri xarakter daşıyırdı. Belə ki, Sultan Yaqubun ölümündən sonrakı dövr Ağqoyunlu tarixində Bayanduri şahzadələrinin və ayrı-ayrı feodal qruplaşmalarının hakimiyyət uğrunda aramsız müharibələri ilə yadda qalmışdır. 1490-cı

ildə tayfa başçılarından olan Sufi Xəlilin yardımı ilə hakimiyyətə Sultan Yaqubun kiçik yaşlı oğlu Baysunqur(1490-1492) gətirildi. 1491-ci ildə Sufi Xəlili məğlub edən Diyarbəkr hakimi Süleyman Bəy Bican oğlu Baysunquru hakimiyyətdə saxlasa da, faktiki olaraq Ağqoyunlu dövlətinin idarə edilməsini öz əlinə aldı. 1492-ci ildə Ağqoyunlu əmirlərindən olan Əbih Sultan Bərdə yaxınlığında Baysunqurun qoşunlarını məğlub edərək Ağqoyunlu taxtına Uzun Həsənin nəvəsi Rüstəm Mirzəni (1492-1497) çıxardı. 1497-ci ildə Ağqoyunlu taxtını ələ keçirmiş Uğurlu Məhəmmədin oğlu Gödək Əhmədin qısa müddətli hakimiyyəti dövrü xüsusilə əlamətdardır. Belə ki, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, hərbi-köçəri əyanların müqavimətini qırmaq məqsədi ilə şəriətdə nəzərdə tutulmayan qeyri-qanuni vergiləri və irsi soyurqalları ləğv etmək kursu əsasında islahatlar yolunu tutan Gödək Əhməd feodalların qiyamı nəticəsində hakimiyyətdən salındı. 1497-1499-cu illərdə Ağqoyunlu taxtı uğrunda Bayanduri şahzadələri Əlvənd Mirzə ilə Murad Mirzə arasında gedən şiddətli mübarizə Ağqoyunlu dövlətinin iki hissəyə parçalanması ilə nəticələndi. Onlar arasında bağlanmış sülhə əsasən Azərbaycan Əlvənd Mirzəyə, Fars və Əcəm İraqı isə Murad Mirzəyə verildi. 1501 və 1503-cü illərdə iki hissəyə bölünmüş Ağqoyunlu dövlətini Səfəvilər dövləti əvəz etdi.

**XV əsrdə Azərbaycanın iqtisadi həyatı.**

**İqtisadi dirçəliş. Şəhərlər və ticarət.**

Bütün orta əsrlər boyu olduğu kimi XV əsrdə də Azərbaycanın iqtisadiyyatının əsasını əkinçilik, heyvandarlıq və sənətkarlıq təşkil edirdi. XIV əsrin son rübündə Azərbaycanda hakimiyyət uğrunda çəkişmələr, Toxtamış və Teymurun işğalçı yürüşləri ölkə iqtisadiyyatına güclü zərbə vursa da, XV əsrin əvvəllərində siyasi sabitliyə doğru gedən proseslər, Qaraqoyunlu dövlətinin yaranması iqtisadi dirçəlişə şərait yaratdı. Ağqoyunlu dövlətinin yaranması, xüsusilə də Uzun Həsənin həyata keçirdiyi islahatlar müvəqqəti də olsa məhsuldar qüvvələrin inkişafına, əhalinin sosial-iqtisadi durumunun yaxşılaşmasına səbəb oldu. Ölkə iqtisadiyyatının ənənəvi sahələrindən olan əkinçilikdə dənli bitkilər, xüsusilə də buğda, arpa, çəltik və s. istehsalı aparıcı yer tuturdu. Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti Kür, Araz, Əhər, Qarasu, Qızılüzən çayları boyunca taxıl məhsulları istehsalının yüksəlişi üçün zəmin yaradırdı. Ölkə ərazisində süni suvarma sistemlərinin kanallar, arxlar, kəhrizlər şəbəkəsinin geniş yayılması taxılçılıqla yanaşı bağçılıq və bostançılıq məhsullarının istehsalı üçün də əlverişli idi. XV əsrdə Azərbaycanda səfərdə olmuş ispat səyyahı R.Q.de Klavixo, italyan səyyahı K.Zeno, İ.Barbora, A.Kontarini və

başqalarının gündəliklərində əkinçilik, bağçılıq və bostançılıq məhsulları haqqında maraqlı məlumatlar öz əksini tapmışdır.

XV əsrdə Azərbaycan iqtisadiyyatının mühüm sahələrindən biri heyvandarlıq idi. Heyvandarlıq sahəsində aparıcı yeri iri və xırda buynuzlu heyvanların saxlanması təşkil edirdi. Əkinçiliyə nisbətən daha məhsuldarlığı ilə seçilən heyvandarlıq üçün Azərbaycanda zəngin olan çəmənliklərlə yanaşı, əlverişli qışlaqların olması xüsusilə önəmli əhəmiyyət kəsb edirdi. Heyvandarlıq məhsulları ölkənin daxili tələbatını ödəməklə yanaşı Azərbaycanın ixrac potensialının mühüm bir hissəsini təşkil edirdi. XV əsrdə heyvandarlıqda atçılıq Azərbaycanın strateci məhsullarından sayılırdı.

Bu dövrdə Şərqin mühüm ipəkçilik mərkəzlərindən sayılın Azərbaycan Avropa ölkələrinin maraq dairələrinin kəsişdiyi ölkələrdən biri idi. Azərbaycanın ən başlıca ipək istehsalı mərkəzi Şirvan bölgəsi hesab edilirdi. Şamaxıda istehsal edilən xam ipək və ipək parçalar Avropa ölkələrində xüsusilə yüksək qiymətləndirilirdi. XV əsr ispan səyyahı Rui Qonsales de Klavixo və italyan səyyahı A.Kontarininin Şamaxının əsas ipəkçilik mərkəzi olması, Şamaxı ipəyinin yüksək keyfiyyəti haqqındakə məlumatları bunu bir daha təsdiq edir.

XV əsrdə Azərbaycan şəhərləri beynəlxalq əhəmiyyətli ticarət mərkəzi kimi də məşhur idi. Azərbaycanda istehsal edilən yüksək keyfiyyətli ipəkçilik və digər sənətkarlıq məhsulları «Böyük ipək yolu» vasitəsilə bir sıra Şərq və Qərb ölkələrinə ixrac edilirdi. Şərqlə-Qərb tranzit ticarətində əsas vasitəçi olan Venesiya və Genuyanın Təbrizdə ticarət faktoriyaları fəaliyyət göstərirdi. Azərbaycanın ixrac məhsulları Hələb, Dəməşq, Kaşan, Bursa, İstanbul, həmçinin Venesiya vasitəsilə Avropa ölkələrinə göndərilirdi. Mənbələrin məlumatına əsasən, Azərbaycan ərazisindən Təbriz-Hələb, Təbriz-Bursa, Təbriz-Trabzon kimi beynəlxalq əhəmiyyətli tranzit ticarət yolları keçirdi. XV əsrin II yarısından etibarən Azərbaycanı Xəzər dənizi və Moskva knyazlığı vasitəsilə Avropa ilə birləşdirən Şimal ticarət yolu (Təbriz-Mahmudabad- Şamaxı-Moskva) xüsusi önəm kəsb etməyə başlamışdı.

Bütün orta əsrlər dövründə olduğu kimi XV əsrdə də Azərbaycan şəhərlər ölkəsi kimi tanınırdı. Bu dövrdə də əsrlər boyu paytaxt olmuş Təbriz Azərbaycanın ən məşhur şəhəri idi. Qaynaqların məlumatına əsasən Təbriz şəhərində 200-300 min əhali yaşayırdı. XIV əsrin son rübü və XV əsrin əvvəllərində dəfələrlə dağıntılara məruz qalan Təbriz Hülakülər dövrünə nisbətən tənəzzül çağını yaşasa da, XV əsrin ortalarından başlayaraq yenidən inkişaf yoluna çıxmışdı. Təbrizin ticarət və sənətkarlıq məhsullarından əldə etdiyi gəlirin ən

böyük Avropa ölkəsinin qazancından çox olması faktı şəhərin iqtisadi əhəmiyyətini bariz nümayiş etdirir.

Azərbaycanın mühüm şəhərlərindən biri də Şamaxı idi. Şirvanşahlar dövlətinin Bakı ilə yanaşı paytaxt şəhərlərindən biri olan Şamaxı mühüm ipəkçilik və sənətkarlıq mərkəzi olmaqla bərabər Şimal tranzit ticarət yolunun əsas qovşağı hesab edilirdi. Təxmini hesablamalara görə Şamaxıda 10 minə qədər ailə yaşayırdı. A.Kontarini Təbrizə nisbətən kiçik olsa da Şamaxının maddi nemətlərin bolluğu baxımından ondan daha əlverişli olduğunu qeyd edirdi.

XV əsr Azərbaycan şəhərləri içərisində Sultaniyə şəhərinin də özünəməxsus yeri vardır. Son tarixi araşdırmalar sübut edir ki, XIV əsrin son rübündə Təbriz dağıntılara məruz qaldığı üçün XV əsrin ortalarına qədər Azərbaycanın ən mühüm ticarət mərkəzi rolu Sultaniyə şəhərinə məxsus olmuşdur. Əmir Teymurun dağılmış vəziyyətdə olan Beyləqanı abadlaşdırmaq və şəhərə suvarma arxı çəkdirməsindən sonra Beyləqan dirçəliş yoluna qədəm qoymuşdu. XV əsrdən etibarən Bakı Azərbaycanın əsas liman şəhərinə çevrilməklə yanaşı, Şirvanşahlar dövlətinin paytaxtı, neft, zəfəran, duz istehsalı mərkəzi kimi də məşhur idi. Bu dövrdə Ərdəbil, Dərbənd, Marağa, Gəncə və s. Azərbaycanın mühüm şəhərləri sırasına daxil idi.

### Siyasi quruluş. Sosial-iqtisadi münasibətlər.

XV əsrdə orta əsrlərin inkişaf dövrünü yaşayan Azərbaycanda Qaraqoyunlu, Ağqoyunlu və Şirvanşahlar dövlətləri mövcud olmuşdur. Bu dövlətlərin siyasi quruluşu və inzibati idarə sistemi XIII-XIV əsrlər Azərbaycan dövlətlərinin siyasi sistemindən o qədər də fərqlənmirdi. Qaraqoyunlu, Ağqoyunlu və Şirvanşahlar dövlətlərinin idarəçilik forması mütləq monarxiya xarakteri daşıyırdı. Qaraqoyunlu, Ağqoyunlu hökmdarları əsasən «padişah», Şirvan hökmdarları isə «şah» titulları qəbul edirdilər. Bununla yanaşı Qaraqoyunlu və Ağqoyunlu hökmdarları bəzi hallarda «əmr», «sultan», «sahibqıran» kimi titullardan da istifadə edirdilər. Hökmdarların hakimiyyəti qeyri-məhdud və irsi xarakter daşıyırdı.

XV əsrdə Azərbaycan dövlətlərinin idarə olunmasında ən mühüm vəzifələrdən biri «əmirül-ümərа» mənsəbi sayılırdı. Faktiki olaraq idarə sistemində hökmdardan sonra ikinci şəxs sayılan əmirül-ümərа dövlətin hərbi qüvvələrinə rəhbərlik edir və yalnız hökmdara tabe olurdu.

Bu dövr Azərbaycan dövlətlərinin idarə olunmasında vəkilin də xüsusi rolu olmuşdur. Vəkil şahın adından çıxış edir, bəzi hallarda isə şahın əvəzçisi rolunu icra edirdi.

Mənbələrin məlumatına əsasən bir sıra hallarda vəkil əmirül-üməra mənsəbindən də üstün hesab edilirdi. İnzibati-idarəçilik aparatında əhəmiyyətli yer baş vəzir və vəzirlərə məxsus idi. Baş vəzir dövlətin maliyə sisteminin tənzimlənməsinə, mülki-inzibati idarələrə, xarici siyasət məsələlərinə rəhbərlik edirdi.

Orta əsr Azərbaycan dövlətlərində dinin mühüm mövqe kəsb etməsi ilə əlaqədar idarəçilik aparatında sədr mənsəbinin də xüsusi rolunu qeyd etmək lazımdır. Sədr ruhani idarəsinə, vəqf əmlakının idarə edilməsinə rəhbərlik edir, hökmdarın fərmanlarını şəriət qanunlarıyla əsaslandırırdı. Dövlətin məhkəmə sisteminə şeyxülislam, qazı və ya mufti başçılıq edirdi. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri inzibati baxımdan əyalətlərə, vilayətlərə, şəhər və kəndlərə bölünürdü. Əyalətləri adətən şahzadələr, bəzi hallarda isə məşhur tayfa başçıları, vilayətləri hakimlər, şəhərləri kələntərlər, kəndləri isə kəndxudalar idarə edirdilər. İnzibati-idarə vahidlərində siyasi asayişin tənzimlənməsi idarəsinə darğa başçılıq edirdi. Azərbaycan dövlətlərinin idarə edilməsində hərbi-köçəri əyanlar, ali ruhanilərlə yanaşı oturaq əyanların da xüsusi rolu şəksizdir.

XV əsr Azərbaycan dövlətlərinin sosial-ictimai münasibətlər sistemində əmlakın hüquqi vəziyyəti, mülkiyyət münasibətləri, vergi və mükəlləfiyyətlər məsələsi mühüm yer tuturdu. Əvvəlki dövrlərdə olduğu kimi XV əsrdə Azərbaycanda torpaq mülkiyyətinin ənənəvi növləri cüzi dəyişikliklərlə qalırdı. Dövlətin idarəsi altında olan torpaqlar əraziyi-divani, hökmdara və hakim sülalənin üzvlərinə məxsus olan torpaqlar əraziyi-xassə adlanırdı. Əraziyi divanidən əldə edilən gəlirlər dövlətin ümumi xərclərinin ödənilməsinə, əraziyi-xassədən gələn gəlirlər isə hakim sülalənin saxlanılmasına sərf edilirdi. Dini idarələrin, ocaq, pir, müqəddəs ziyarətgahların torpaqları vəqf-i xeyri, din xadimlərinə məxsus torpaqlar isə vəqf-i əhli adlanırdı. Feodalların xüsusi mülkiyyətində olan torpaqlar mülk adlanırdı. Mülk torpaqları irsən keçə bilər, alqı-satqı obyektinə çevrilə bilər, bəxşiş kimi verilə bilərdi.

XV əsrdə artıq şərti torpaq mülkiyyətinin yeni növü olan soyurqal iqtanı tamamilə əvəzləmişdi. XIV əsrin 60-cı illərindən meydana çıxan soyurqal hərbi və ya mülki xidmət müqabilində verilən torpaq mülkiyyəti növü idi. İqtadan fərqli olaraq soyurqal sahibləri öz torpaqlarını irsi olaraq varislərinə verə bilərdilər. Digər tərəfdən soyurqal sahibləri iqtadardan fərqli olaraq soyurqal ərazisində vergi, polis və məhkəmə immuniteti hüququna malik idi.

Sosial-ictimai münasibətlər sisteminin nizamlanmasında vergi və mükəlləfiyyətlər mühüm rol oynayırdı. Qaynaqların məlumatına görə XV əsrdə əhali üzərinə çoxsaylı vergi

və mükəlləfiyyətlər qoyulmuşdu. Bəzi hökmdarların, xüsusilə də Uzun Həsən və Əhməd Ağqoyunlunun islahatları nəticəsində vergilərin sayı və həcmi nisbətən yüngülləşdirilsə də bu yalnız ötəri xarakter daşımışdı. Şirvanşah Fərrux Yasarın 1474-cü ildə Mahmudabadın oğluna verilməsi haqqında sənəddə 5, Ağqoyunlu şahzadəsi Qasımın 1498-ci ilə aid soyurqal sənədində 31 verginin adının çəkilməsi göstərir ki, Şirvanşahlar dövlətinə nisbətən Ağqoyunlu dövlətində əhali üzərinə daha çox vergilər qoyulurdu. XV əsrdə Azərbaycan əhalisindən malcəhət, ixracat, ələfə və ülufə, qonalqa, novruzi və ya bayramlıq, savəri və ya peşkəş, tamğa, bac, bəhrə, çobanbəyi və s. vergilər alınırdı.Əsas torpaq vergisi olan malcəhətadatən məhsulun 1/5 hissəsini təşkil edirdi. Sənətkar və tacirlərdən şəhər qapılarında böyük tamğa, pərakəndə satış zamanı kiçik tamğa, ticarət karvanlarından isə gömrük vergisi olan bac alınırdı. Dövlətin və feodalların mülkiyyətində olan suvarma sistemlərindən istifadə müqabilində bəhrə, otlaq sahələrindən istifadə üçün isə çobanbəyi vergisi toplanılırdı. Əyalətlərdəki döyüşçü və dövlət məmurlarının ehtiyaclarını ödəmək üçün ixracat, ordudakı heyvanları yemləmək üçün ələfə və ülufə vergisi yığılır, xarici ölkə səfirlərinin və dövlət qulluqçularının rəiyyət evlərində saxlanması qonalqa mükəlləfiyyəti adlanırdı.

**Mədəni həyat.**

XV əsrdə Azərbaycanın bütün ərazisində yerli dövlətçilik ənənəsinin yenidən bərpa olunması, ölkənin sosial-iqtisadi və siyasi inkişafında olduğu kimi mülkiyyətin dirçəlişinə də təminat yaratdı. Qaraqoyunlu hökmdarı Qara Yusifin və Cahan şahın, Ağqoyunlu hökmdarı Uzun Həsən və Sultan Yaqubun, Şirvanşah I İbrahim və I Xəlilullahın mədəniyyətə xüsusi qayğıları Azərbaycan tarixində silinməz izlər buraxmışdı. Bu dövrdə Azərbaycanda məktəb və mədrəsə təhsili sistemi geniş yayılmış, bütün iri şəhərlərdə mədrəsələr şəbəkəsi fəaliyyət göstərirdi.

XV əsrdə Azərbaycanda humanitar və dəqiq elmlər sahəsində müəyyən inkişaf nəzərə çarpırdı. İ.Nəsiminin hürufilik fəlsəfi baxışlarının yetginlik dövrü, onun layiqli davamçısı Əbülhəsən Əli ül-Əlanın, Seyid Yəhya Bakuvinin fəlsəfə, astronomiya sahəsindəki fəaliyyəti XV əsrə təsadüf edir. Bu dövrün görkəmli tibb alimlərindən Şükrullah Şirvani, dilçilik, fiqh, məntiq, hesab elmlərinin bilicisi Bədrəddin Əhməd Xələvinin adlarını xüsusi qeyd etmək lazımdır. Fəaliyyətinin son dövrü XV əsrin əvvəlinə təsadüf edən Əbdürrəşid ibn Saleh əl-Bakuvi zəmanəsinin görkəmli coğrafiyaşünas alimi olmuşdur. Xalqımızın zəngin tarixinə böyük saygı və ehtiram nümayiş etdirən Uzun Həsən və Sultan Yaqubun göstərişləri ilə Əbübəkr Tehrani və Fəzlullah ibn Ruzbixan Xunci Bayandurilər

səltənətinin mükəmməl tarixini tərtib etmişdilər. XV əsrdə Azərbaycanda bədii söz sənəti yüksələn xətt üzrə inkişaf edirdi. Dövrün görkəmli söz sənəti sahiblərindən olan İ.Nəsimi(1369-1417), Şah Qasım Ənvar(1356-1434), Bədr Şirvani(1387-1450), Cahanşah Həqiqi(1397-1467) və başqalarının Divanları Azərbaycan ədəbiyyatının möhtəşəm inciləri sırasına daxildir. XV əsrdə Azərbaycanda memarlıq sənətinin şah əsərləri yaradılmışdır. Bu dövr milli memarlığının ən nadir incisi Bakıda tikilmiş Şirvanşahlar saray kompleksidir. 1490-cı ildə tikilmiş Saray və 1450-ci ildə ona əlavə edilmiş Divanxana XV əsr memarlıq sənətimizin şah əsəridir.

Qaraqoyunlu və Ağqoyunlu hökmdarları paytaxt şəhəri Təbrizin memarlıq ansamblının zənginləşdirilməsinə xüsusi qayğı ilə yanaşırdılar. Cahanşahın əmri ilə 1465-cı il Təbrizdə tikilən Göy Məscid, Uzun Həsənin göstərişi ilə Təbrizdə tikilmiş nəhəng saray, Sultan Yaqubun dövründə yeni tikililərlə tamamlanaraq «Həştbehişt» adlandırılan möhtəşəm kompleksə çevrilmişdi. Venesiya səyyahlarının məlumatına əsasən şah saray kompleksində zəngin kitabxana, Həsən padişah camesi, 1000 çarpayılıq şəfa evi, park və cıdır meydançası salınmışdı. Həsən padişahın dövründə Təbrizdə tikilmiş Qeysəriyyə örtülü bazarı, Nəsriyyə, Maqsudiyyə mədrəsələri də dövrün nadir memarlıq incilərindən olmuşdur. Çox təəssüf ki, təbii fəlakətlər nəticəsində Təbriz memarlığının bu nadir inciləri dövrümüzə qədər gəlib çıxmamışdır.

XV əsrdə Azərbaycanda tətbiqi sənətlərə saxsı, oyma, qabartma, bədii metal, zərgərlik, toxuculuq, xalçaçılığın yüksək inkişaf səviyyəsində olması da xüsusilə qeyd olunmalıdır.